İPƏK YOLU, No.3, 2025, səh.160-166
https://doi.org/10.30546/SI.2025.3.147.329

# T. STOPPARDIN “ROZENKRANS VƏ QİLDENSTERN ÖLMÜŞLƏR” PYESİNDƏ ABSURD TEATR PRİNSİPLƏRİNİN İNİKASI

**Şölə Allahverdi**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: shole_mah@yahoo.com

**Xülasə.** Məqalə T. Stoppardın “Rozenkrans və Qildenstern ölmüşlər” pyesində absurd teatra xas xüsusiyyətlərin araşdırılmasına həsr olunmuşdur. Burada T. Stoppard və pyes haqqında ümumi məlumat verilmişdir. Daha sonra T. Stoppardın pyesi ilə V. Şekspirin “Hamlet” dramının müqayisəli təhlilinə, T. Stoppardın pyesindəki absurd teatr ənənələrinin tədqiqinə yer verilmişdir. Nəticə hissədə təhlillər və mülahizələr ümumiləşdirilmişdir.

**Açar sözlər:** Pyes, dramaturq, metateatral təsirlər, absurdluq, ekzistensializm.

## REVIEW OF THE PRINCIPLES OF THE THEATER OF THE ABSURD IN THE PLAY “ROSENCRANTZ AND GUILDENSTERN ARE DEAD” BY T. STOPPARD

**Shola Allahverdi**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article is devoted to the study of the features of the absurd theater in T. Stoppard's play "Rosencrans and Guildenstern Are Dead". Here, general information about T. Stoppard and the play is provided. Then, a comparative analysis of T. Stoppard's play and W. Shakespeare's drama "Hamlet" is provided, and the study of the traditions of the absurd theater in T. Stoppard's play is provided. The analysis and considerations are summarized in the conclusion.
**Keywords:** Play, dramatist, metatheatrical implications, absurdity, existentialism.

## ОБЗОР ПРИНЦИПОВ ТЕАТРА АБСУРДА В ПЬЕСЕ Т. СТОППАРА “РОЗЕНКРАНЦ И ГИЛЬДЕНШТЕРН МЕРТВЫ”

**Шола Аллахверди**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** Статья посвящена исследованию особенностей театра абсурда в пьесе Т. Стоппарда «Розенкранс и Гильденстерн мертвы». Приводятся общие сведения о Т. Стоппарде и пьесе. Проводится сравнительный анализ пьесы Т. Стоппарда и драмы У. Шекспира «Гамлет», а также исследуются традиции театра абсурда в пьесе Т. Стоппарда. В заключении подводятся итоги анализа и излагаются соображения.
**Ключевые слова:** Пьеса, драматург, метатеатральные импликации, абсурд, экзистенциализм.

## 1. Giriş

Tom Stoppard intellektual dərinliyi, söz oyunu və fəlsəfi mövzuların tədqiqi ilə tanınan məşhur britaniyalı dramaturq və ssenaristdir. Pyeslərində müdrik dialoqlar, mürəkkəb strukturlar yaradan və müasir mədəniyyəti ənənəvi istinadlarla çulğalaşdıran dramaturq tamaşaçıları əyləndirməklə yanaşı intellektual ovqatı ilə seçilir. Çağdaş dünya bəşəriyyətin nihilizminə bəhanə kimi fatalizmi icad etdiyindən fərdlər böhrandan çıxış yolu tapmaqda acizdirlər. Bu nöqteyi-nəzərdən, T. Stoppard xaotik cəmiyyətləri tənqid etmək üçün absurd teatrın, metateatrın prinsiplərindən istifadə edir, dramlarında tamaşaçılara insanın durumunun ondan asılı olmayan qüvvələr tərəfindən müəyyən edildiyini incə yumor və ironiya ilə göstərir. Nyu York jurnalına verdiyi müsahibədə dramaturq *“Pyeslər əylənmək üçün yazılır... Şəkillər*

*müzakirə olunmaq üçün çəkilmədiyi kimi, heç bir pyes də öyrənilmək və müzakirə olunmaq üçün yazılmır"* [11] fikrini bildirmişdir. Dramaturq 1966-cı ildə yazdığı "Rozenkrans və Qildenstern ölmüşlər" pyesindəki obrazlar vasitəsilə yaşadığımız dünyanın mənasızlığını, rastlaşdığımız situasiyaların absurdluğunu göstərməyə çalışır. V. Şekspirin "Hamlet" pyesinin motivlərinə istinad edən T. Stoppard müxtəlif nöqteyi-nəzərdən təhlillərə açıq olan bu əsərində hazırcavab dialoqlar, söz oyunları, sarkazm, metateatr və s. vasitəsilə ekzistensializm və absurdluq problemlərinə işıq salır. Pyesin tamaşaya qoyulması ilə bir gecədə məşhurlaşan T. Stoppardın sorağı hər yerə yayıldı və ona istinadən ədəbi mühitdə "Stoppardian" termini yarandı. Tənqidçilər və ədəbiyyatşünaslar fəlsəfi problemlərə müraciət etməklə bərabər müdrik və komik nüansların da yer verildiyi əsərləri məhz "Stoppardian" termini ilə tanımlayırdılar. "Rozenkrans və Qildenstern ölmüşlər" dramı Amerikada da eyni rəğbətlə qarşılandı və Nyu Yorker jurnalı tərəfindən pyes "göz qamaşdırıcı mərhəmətli fantaziya" [6, s.22] adlandırıldı. Həmçinin pyes 1967-68-ci illərin ən yaxşı tamaşası olaraq Toni və Dram Tənqidçilər Cəmiyyətinin mükafatlarına layiq görülmüşdür.

## 2. "Rozenkrans və Qildenstern ölmüşlər" pyesində "Hamlet" faciəsinin transformasiyası

1950-ci ilin sonlarında İngiltərə teatrında mövcud olan narahatlıq və qeyri-sabitliyi təhlil edən K. Biqsbi qeyd edir ki, *"teatrdakı qeyr-sabitlik Tom Stoppard kimi yazıçılar tərəfindən qoyulan "ontoloji və qnoseoloji suallarda" ifadəsini tapır"* [1, s.14]. Tom Stoppard "Rozenkrans və Qildenstern ölmüşlər" pyesində kainatın quruluşu, insanın dünyada yeri və məqsədi ilə bağlı ekzistensial sualları araşdırarkən absurd teatrdan, metateatrdan, linqvistik oyunlardan bir vasitə kimi istifadə edir. V. Şekspirin "Hamlet"indəki iki kiçik personajın "səhnədənkənar" həyatına, talelərinin və ölümlərinin "ssenariləşdirildiyi" dünyada davamlı məqsəd axtarışlarına əsaslanan pyesdə Rozenkrans və Qildensternin yaşadığı situasiyanı anlamaq qeyri-mümkün olmaqla yanaşı, onların vəziyyətini təsvir və izah etməyə çalışmaq da böyük səy tələb edir. Yalnız həyatın hansısa məqamında şəxsiyyət böhranı keçirmiş və ya kənar hadisələrin həyatının istiqamətini diktə etdiyini hiss edən, Şekspirin pyesini yeni təqdimatda görməyə hazır olan intellektual tamaşaçıya obrazların durumu narahatedici dərəcədə tanış gələ bilər. Tədqiqatçı alim Con Fleminq "Ədəbi modernizm" külliyyatının bir hissə olan "Stoppardın teatrı: xaosda nizam tapmaq" əsərində qeyd edir ki, *"tamaşa həqiqətin mahiyyəti, şəxsiyyətə qarşı oyun, insanın faniliyi kimi çox vacib fəlsəfi problemləri araşdırmaqla yanaşı belə bir sual da təqdim edir - dünyanı dəyişən həyat və kainatın təsadüfi və ya determinist olmasıdır, yoxsa dünyada hər şeyi məntiq idarə edir?"* [7, s.53].

T. Stoppardın Şekspiri reprezentasiya etməsinin üstünlüyü ondan ibarətdir ki, o, ənənəvi mütaliədən və Hamletin qavranılmasının ümumavropa mədəni şüurunda kök salmış əbədi obrazlar dairəsindən kənara çıxa bilib. Şekspirin pyesinin adını eşitdikdə istər-istəməz Hamlet, Hamletin atasının kölgəsi, Ofeliya, Klavdi və Gertrudu təsəvvür edirik, T. Stoppard isə "Hamlet" faciəsinin daha iki qəhrəmanını Rozenkrans və Qildensterni əbədiləşdirdi. Ciddi

şəkildə “Hamlet”in hüdudları daxilində cərəyan edən “Rozenkrans və Qildenstern ölmüşlər” pyesindəki obrazlar Hamletin tələbə yoldaşlarıdır.

Ümumilikdə, hər iki pyes eyni obrazları və hadisələri ehtiva etsə də, tarixi, sosial və ədəbi kontekstləri, eləcə də prioritetləri baxımından bir-birindən fərqlənirlər. Müasir auditoriyanı əyləndirmək üçün kanonik Şekspir pyesini transformasiya edən T. Stoppardın əsərinin dili, teatral üslubu, mövzusu çağdaş anti-dramın prinsiplərinə əsaslanır. Taleyin, fəlsəfənin və istehzanın çulğalaşdığı mühitdə iki çaşqın və mübahisəli obrazın ekzistensial sualları ilə başlayan pyes son səhnədə obrazların ölümü ilə tamamlanır.

Pyesin əvvəlində məqsədsiz şəkildə “oryol-reşka” oynayan Rozenkrans və Qildenstern oyunun abu-havasına o qədər qapılırlar ki, harda olduqlarını, hara gedəcəklərini unudurlar. Bu motiv T. Stoppardın ustalıqla bədbin sonluqlu tamaşaya sanki məqsədsiz əlavə etdiyi komik element sayılır və obrazların dialoqlarının absurdluğu məhz Hamletin dəlilik oyunu ilə müqayisə oluna bilər. Dahi sələfinin irsinə müraciət edərək, orijinalın fəlsəfi və estetik məzmununu təhrif etməyən və Şekspirlə mübahisəyə girməyən T. Stoppard onunla yaradıcı dialoq qurur və bununla da müasir oxucunun/tamaşaçının mənəvi dünyasını zənginləşdirir və onu əsərin qəhrəmanlarına, daha sonra isə özünə tənqidi yanaşmağa məcbur edir. Əgər “Hamlet”də yalnız şahzadə əbədi fəlsəfi suallara cavab axtarmaq üçün davamlı araşdırmalardan əziyyət çəkirsə, T. Stoppard bu ekzistensial təcrübənin bütün çətinliyini iki “kiçik” obrazın düşüncəsi və daxili dünyası vasitəsilə hiss etməyə imkan yaradır. Əlbəttə ki, Rozenkrans və Qildensternin düşüncələri Hamletin kamilliyi ilə müqayisə edilə bilməz, lakin psixoloji cəhətdən hər iki obraz ekzistensial problemlərin açılmasında tamamilə fərqli bir mənzərə təqdim edir.

Şekspirin süjetini dəyişən T. Stoppard ““Hamlet”dən uzaq bir məkanda, Şekspirin buraxdığı boşluqlarda işləyir” [9] və mədəni aspektdə dünyanın mənzərəsinin necə və nə dərəcədə fərqli olduğunu anlatmağa çalışır. O, Hamleti heç də unikal şəxsiyyət kimi təqdim etmir, onun anti-Hamleti insanların taleyinin dirijoru, həyatlarına müdaxilə edən şəxs kimi göstərilir. Tələbə yoldaşlarını rəhm etmədən ölümə göndərən Hamletin soyuqqanlı qətiyyəti humanist alim Horasionu dərindən sarsıtmaqla yanaşı həm də təəccübləndirir. T. Stoppard çağdaş dramın ənənələrinə uyğun tərzdə Şekspirin obrazındakı qəzəbi sosial status və şəxsi münaqişə müstəvisinə çevirmişdir. Rozenkrans və Qildensternin heç bir mənəvi seçim haqqı yoxdur, onlar krala xidmət edir, statusları onlara Klavdinin iradəsinə müqavimət göstərməyə imkan vermir. Bundan başqa, Hamletin də onlara Danimarka krallığının bütün təbəələrinin bildiyi həqiqətdən başqa heç bir həqiqəti öyrənmək şansı vermir.

Tədqiqatçı F. Edvards “Hamletə ön söz” essesində yazır ki, *“XX əsrdə şahzadəyə və onun hərəkətlərinə müsbət münasibət gözləmək kifayət qədər çətin idi: o biri dünyadan səs eşidən hər kəs psixi cəhətdən anormaldır, dünyanın əksər ölkələrində isə qisas aktı doğru hesab olunsa da, xoş qarşılanmır və həmçinin ikinci dəfə evlənmək qeyri-adi hadisə deyil, Hamlet isə anasına qarşı çox sərtdir”* [4, s.60]. Ümumiyyətlə, XX əsrin Şekspir tənqidində Hamletin

Polonius, Ofeliya, Rozenkrans və Qildensternin qəsdən və ya dolayı şəkildə öldürülməsi ittihamlarına rast gəlmək mümkündür. Hətta feminizmin nümayəndələri Ofeliya və Gertrudun başına gələn bütün bəlalara görə Hamleti kəskin tənqid edir. T. Stoppardın "Hamlet" təfsirinin də əsas məqsədi ideallaşdırılmış intibah humanizminin XX əsr kontekstində təqdimatına əsaslanır.

### 3. "Rozenkrans və Qildenstern ölmüşlər" pyesində absurd teatrın izləri

Əsas obrazların onlara yad olan dünyada sağ qalmaq cəhdi pyesin təməl absurd aspektini yaradır. Səyahət zamanı təqdim olunan Rozenkrans və Qildensternin hara getdikləri və səyahətlərinin məqsədi ilə bağlı demək olar ki, heç bir fikir bildirilmir. Düşdükləri vəziyyətlə bağlı məlumatsızlıqları, oyunun metateatrik aspektinin əlavə göstəricisidir, çünki onlar heç vaxt olmamalı olduqları bir dünyada "şüurlu vəziyyətə" gətiriliblər. Absurd teatrda obrazların mərkəzi faktor olmamağı nəzərdə tutulsa da, onların qəfil şüurlu manevrləri və öz vəziyyətləri haqqında düşünmək qabiliyyəti bədii ədəbiyyatda yaradılan hər hansı bir obrazın pərdəarxası həyatına maraqlı şərhdir. Pyesdə isə iddia olunur ki, burada pərdə arxasında həyat yoxdur və ya var olduğunu təsəvvür etməyi nə qədər arzulasaq da, səhnə və tamaşadan kənar obrazların təhlil oluna biləcəyi dərinliyi yoxdur. Hamletin süjeti ilə birbaşa əlaqəli olmaqdan savayı Rozenkrans və Qildensternin keçmişlərindən xatırlaya biləcəkləri heç bir şey yoxdur.

Rozenkrans və Qildensternə digər obrazların "heç kim" kimi rəftar etməsinin də səbəbi onların sərbəst hərəkət etmək güclərinin olmamasıdır. Klavdi və ya Hamlet üçün onlar sadəcə olaraq şəxsi keyfiyyətləri əhəmiyyət kəsb etməyən iki piyadadır. Hətta bu səbəbdən onların adlarını tez-tez qarışdırırlar, çünki ikisini ayırd etmək heç vaxt vacib olmayıb və onlara demək olar ki, bir varlıq kimi yanaşılır, biri digəri olmadan heç vaxt səhnədə görünmür. Onların qazanılmış şüuru ssenarinin hüdudları ilə məhdudlaşdığından bunu tamaşanın metateatr aspekti ilə əlaqələndirək olar.

Qeyri-müəyyən təsvirlə başlayan "Rozenkrans və Qildenstern ölmüşlər" pyesində şəxsiyyətə və ölümə metateatrik yanaşma əslində bütövlükdə dövrün insanına münasibəti sərgiləyir. Bir çox tənqidçilər qeyd edir ki, Rozenkrans və Qildensternin dünyasının xaotikliyi, məntiqsizliyi və sirri S. Bekketin "Qodonu gözləyərkən" pyesindəki absurd dünyaya bənzəyir və T. Stoppard açıq şəkildə S. Bekketin şah əsərini öz pyesi üçün ilham mənbəyi kimi istifadə edib. "Çoxlu mətnlərin və çərçivələrin kəsişməsinin" [8, s.59] mövcud olduğu pyesdə T. Stoppard özünün "Vladimir və Estraqonunu" Hamletin intibah kontekstinə yerləşdirməklə S. Bekketin boşluğunu qismən doldurdu. Bəzi tədqiqatçılar isə "Qodonu gözləyərkən" anti-dramından fərqli olaraq "Rozenkrans və Qildenstern ölmüşlər" dramının tamamilə qaranlıq motivlərdən ibarət olmadığını, komediyaya bənzər elementləri də ehtiva etdiyini vurğulayırlar. Ümumilikdə isə hər iki pyesi, daha dəqiq desək, XX əsrdə yazılmış bir çox pyesləri absurd teatrın prinsiplərinə uyğun təhlil etmək, əsərlərin dövrlə bağlılığının, həmçinin yeni ədəbi konsepsiyaların bədii nümunələrdə tətbiq formalarının üzə çıxarılması baxımından məqsədəuyğun hesab olunur.

“Rozenkrans və Qildenstern ölmüşlər” pyesindəki absurdluğu şərh edən Viktor Kanın fikrincə, T. Stoppard *“insanların oynamaq üçün rolları olmadığı və varlıq səbəblərini uydurmalı olduqları şərti absurd nihilizmindən ciddi şəkildə müəyyən edilmiş, lakin hələ də ümidsiz şəkildə anlaşılmaz bir rol oynamalı olduqları nihilizmə keçir”* [2, s.48].

T. Stoppardın “Hamlet”dən istifadə etməsi ona absurd drama xas süjetsizlik probleminin həllində kömək edir. Belə ki, dramaturq etiraf edir ki, “Hamlet”in artıq yazılmış süjeti onu pyesinin yazılmasındakı bəzi çətinliklərdən xilas edib, daha dəqiq desək, Şekspirin pyesi T. Stopparda öz dislokasiyalarını birləşdirən daha geniş “süjet” təqdim etmişdir. Şekspirin tədqiqatçısı Cen Xovarda görə, intibah dövrünə aid *“şəxsiyyətin təbiətinin tanınması və paradiqmaların toqquşması”* [5, s.16] problemi XX əsr üçün də aktual mövzular olduğundan T. Stoppardın Şekspirə müraciət etməsi intibah və yeni dövrün qarşılaşdırılması baxımından təqdirəlayiq hesab olunur.

T. Stoppard “Hamlet”dən istifadə edərkən S. Bekket, E. İonesko kimi dramaturqların müraciət etdiyi absurd teatrı Mişel de Montenin skeptisizmində və Robert Burtonun melanxoliyasında kontekstləşdirir. Dramaturqun auditoriyası intibah dövrünün narahatlıqlarla dolu yeni konseptuallaşdırma üsullarına keçidi işığında siyasi, mədəni, elmi problemlərinin müasir təqdimatına baxmağa təşviq olunur. Pyesdəki absurdluq ekzistensial sorğu-sual, anlaşılmaz ifadələr, hərəkətin mənasızlığı, həyat və ölümün qaranlıq və həmçinin ironik təfsiri, obrazların oynadığı “oryol-reşka” oyununun dünyanın ixtiyari və absurd təbiətini əks etdirən ehtimal və nizam anlayışı vasitəsilə ortaya çıxır. T. Stoppard bu elementlərdən dərin fəlsəfi sualları həm yumoristik, həm də düşündürücü şəkildə araşdırmaq üçün istifadə edir.

Professor Qorxmaz Quliyev absurd teatrın xüsusiyyətlərini şərh edərkən qeyd edir ki, *“bütün radikal inkarlarına baxmayaraq antiteatrın struktur əsasını ənənəvi teatrda olduğu kimi mükalimə, dialoq təşkil edir. Texnoloji xüsusiyyətlərdən, fərdi fərqlərdən məhrum olsalar da, personajlar yenə də əsərdəki hadisələrin, lap elə deyək antihadislərin cərəyanını, onların bir-birinə pərçimlənib dramatik növ əmələ gətirməsini təmin edirdi”* [14, s.65]. “Rozenkrans və Qildenstern ölmüşlər” pyesində eyni çərçivədə davam edən mənasız dialoqlar, obrazların söz oyunu, “fəlsəfi” mübahisələri onların bir-birlərini səhv başa düşməyinə səbəb olur. Ünsiyyətin bu şəkildə pozulması absurd teatrında dilin fikirləri ifadə etməkdəki acizliyi ilə səsləşir.

T. Stoppard özü dəfələrlə qeyd etmişdir ki, onun əsəri ucu-bucağı görünməyən söz oyununa köklənmişdir. Pyes faciəvi sonluqla başa çatmağına baxmayaraq bu söz oyunu onun atmosferini yumşaldır, onun süjetində gülməli məqamların meydana gəlməsinə səbəb olur. Əsərin qəhrəmanlarının dialoqlarının absurdluğu Hamletin özünü dəliliyə vurmasını xatırladır və Şekspirin qəhrəmanının ilk baxışdan bir-biri ilə bağlı olmayan sözlərində olduğu kimi Stoppard qəhrəmanlarının düşüncələrindəki dərinliyi üzə çıxarır [10, s.276].

Absurd teatrda komikliklə faciəvilik qaynayıb qarışır: həyatın ən faciəvi cəhətləri məsxərəyə qoyulur, gülməli tərəfləri faciə kimi təqdim olunur. Bu iki komponenti bir-birindən ayırmaq müşkül problemə çevrilir. Deməli, komiklik və faciəvilik absurd teatrda insan

mövcudluğunun yeganə mümkün forması kimi meydana gəlir və bununla bir növ həyatın puçluğunu, boşluğunu, mənasızlığını əks etdirir [14, s.71]. "Rozenkrans və Qildenstern ölmüşlər" dramında ölümə münasibətin həm komik, həm də faciəvi şəkildə təqdim olunması absurd teatrın əlaməti sayıla bilər. Ölümü dərk etməmək və ya ölüm qorxusu ölümün həyatın qaçılmaz, anlaşılmaz hissəsi olduğu barədə absurd anlayışı əks etdirir. Pyesdəki absurdluq komik səhnələrdə də mövcuddur, obrazların çaşqınlığı onların məntiqli davranmaq cəhdləri ilə ziddiyyət təşkil edir. Yumordan bu şəkildə istifadə, varlığın mənasızlığında komediya tapmaq absurd teatr ənənəsi ilə üst-üstə düşür.

"Rozenkrans və Qildenstern ölmüşlər" pyesində ekzistensializm fəlsəfəsindən, xüsusən də J.P. Sartr və A. Kamünün ideyalarından bəhrələnmə açıq-aydın hiss olunur. Məlum olduğu kimi, A. Kamünü absurdluq anlayışı insanların məna axtarışına heç bir cavab verməyən səssiz, laqeyd kainat arasındakı ziddiyyəti ifadə edir. T. Stoppardın pyesi də bu fəlsəfənin nümunəsi hesab oluna bilər. Belə ki, özlərini başa düşmədikləri və qaça bilməyəcəkləri bir hekayənin içində tapan obrazlar A. Kamünün həyatın absurdluğu ideyasını əks etdirir. Həmçinin pyesdə Sartrın "Varlıq və heçlik" əsərindən də eyhamlar sezilir. Rozenkrans və Qildenstern aydın məqsədləri və ya daxili şövqləri olmadan mövcuddurlar - onlar sadəcə ordadırlar və mənasız dünyada əvvəlcədən təyin edilmiş bir sıra hadisələri idarə etməyə çalışırlar.

T. Stoppardın dərin ekzistensial sualları araşdırmaq üçün absurd teatrın prinsiplərindən, insan varlığının faciəvi təbiətini vurğulamaq üçün isə yumor və istehzadan istifadə etməsi onun XX əsr dramaturgiyasında dərin izlər qoymağına səbəb olmuşdur. Tənqidçi Entoni Kallen "Rozenkrans və Qildenstern ölmüşlər" pyesindən bəhs etdiyi "Stoppardın Qodosu" essesini belə bir fikirlə bitirir: *"Bu pyes Avropa ənənələrini mənimsəmiş yeni nəsil ingilis dramaturqları tərəfindən yazılmış ən yaxşı pyeslərdən biridir"* [3, s.30].

**Nəticə.** Tom Stoppardın "Rozenkrans və Qildenstern ölmüşlər" pyesindəki absurdluq, absurd teatrının ideyaları ilə uzlaşaraq, tamaşanın tematik və stilistik əsasının mərkəzini təşkil edir. Absurdluq ekzistensial dilemmalar, dil oyunları və hadisələrin təsadüfiliyi vasitəsilə təsvir edilir, məntiq və mənanın çətin göründüyü bir dünya yaradır. Pyesdəki absurdluq obrazların çaşqınlığını və çarəsizliyini vurğulamağa xidmət edir, əsərdəki yumor ekzistensial tutqunluqla birləşərək, bəsit və laqeyd bir kainatda həyatın, ölümün, məna axtarışının absurdluğuna dair dərin şərhlər verir.

## Ədəbiyyat

1. Bigsby C. (1976), Tom Stoppard (Writers and Their Work). Liverpool University Press, 51.
2. Cahn V.L. (1979), Beyond Absurdity: The Plays of Tom Stoppard. Rutherford: Fairleigh Dickinson University Press, 169.
3. Callen A. (1969), Stoppard's Godot. New Theatre Magazine, No.10, 22-30.
4. Edwards P. (1985), Introduction to Hamlet, Prince of Denmark. Cambridge University Press, 40-61.

5. Fleming J. (2001), Stoppard's Theatre: Finding Order amid Chaos (Literary Modernism). University of Texas Press. 343.
6. Howard J.E. (1986), The New Historicism in Renaissance Studies. English Literary Renaissance, 13-43.
7. https://www.houseofideas.com/mscornelius/resources/hamlet/hamlet_vol_59__philip_edwards_essay_date_1985_276850-.pdf
8. Jagtap K. (2012), The seen and the unseen in: Tom Stoppard's rosencrantz and guildenstern are dead as a creative reading of Hamlet. Middle East University, Master's thesis, 140. https://meu.edu.jo/libraryTheses/5870a81d62e16_1.pdf
9. Kelly K.E. (2001), The Cambridge Companion to Tom Stoppard. Cambridge: Cambridge University Press, 264.
10. Quliyev Q. (1999), Dəlidən Doğru Xəbər. Bakı, Mütərcim, 160.
11. Quliyev Q., Hüseynli G. (2019), Müasir Qərb Dramaturgiyası. Bakı, Zəka print MMC, 344.
12. Stoppard T. (1977), From an interview with Jon Bradshaw in New York Magazine.
13. Stoppard T. (2017), Rosencrantz and Guildenstern Are Dead. Grove Press, 128.
14. Олейников А. (2008), Шекспир vs. Стоппард Электронный ресурс. Международный литературный клуб Интерлит. http://www.interlit2001.com/oleynikov-4.htm